# Lahıcda radio kolleksiyası

## *Onların arasında 1924-cü ildə istehsal olunmuş radio da var*

Özünəməxsus gözəllikləri, əntiq əşyaları, növbənöv sənətkarlıq nümunələri ilə zəngin olan Lahıc həmişə qonaqlarını təəccübləndirməyi bacarıb. Lahıc bələdiyyəsinin sədri Rövşən Əliyev deyir ki, indi bura gəlib-gedənlərin diqqətini radio kolleksiyası da çox cəlb edir.







Kolleksiyanın cəmləşdiyi dükanda bizi Etibar Nurməmmədov qarşıladı. O, 1977-ci ildə Bakı Yüngül Sənaye Texnikumunu bitirib. Əvvəllər Bakı şəhərində işləyib. 1983-cü ildən 2012-ci ilədək Lahıc Xalça İstehsalat Birliyində çalışıb. Kolleksiya ilə bağlı o, bunları dedi:

- Radio kolleksiyasının yaradılması kiçik qardaşım Məhəmməd Nurməmmədovun adı ilə bağlıdır. O, Fövqəladə Hallar Nazirliyinin Layihələndirmə Elmi-Tədqiqat İnstitutunun aparıcı memarıdır. 1997-ci ildə Rusiyada yaşayanda belə bir kolleksiya yaratmaq fikrinə düşüb və internet vasitəsilə keçmiş Sovet İttifaqının tərkibində olan ölkələrlə əlaqə saxlayaraq radio toplamağa başlayıb.

İndiyədək 100-dən çox radionun toplanmasına nail olmuşuq. Eksponatlar arasında 2 mindən çox qrammofon valı da var. Onların hamısı, radioların isə təxminən 60 faizi işlək vəziyyətdədir. Qalanlarının da təmiri istiqamətində iş gedir. Hazırda həmin radioların hamısının istehsalı dayandığından ehtiyat hissələrini tapmaq çətindir, əsasən də lampalarını. Çünki onlar müxtəlif lampalarla işləyir və çətinliklə tapılır. Buna baxmayaraq, istər internet vasitəsilə, istərsə də digər yollarla ehtiyat hissələrini tapmağa çalışırıq. Məqsədimiz ekspozisiyada olan bütün radioların işləməsinə nail olmaqdır.

Ekspozisiyada olan radiolar arasında ən unikalları batareya ilə işləyən "Rodina", "Rodina-49", "Rodina-52", "İskra" və s. markalardır. Radioların hər birinin kataloqu da hazırlanıb.

Ekspozisiyadakı ən qədim radiolardan biri 1924-cü ildə artel şəraitində istehsal olunub. Onlardan biri kolleksiyada var.

Etibar Nurməmmədov sonda dedi ki, kolleksiyanı daha da zənginləşdirmək üçün axtarışları davam etdirirlər.

*Əli SƏLİMOV,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*